

**Vüqar ƏHMƏD**

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin sədri, filologiya üzrə elmlər doktoru, professor*

# Tez bir zamanda

## *"Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin yaranması və fəaliyyəti haqqında*

İki il bundan öncə Ədəbiyyat İnstitutunun direktoru, hörmətli ədəbiyyatşünas alim, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə institutun nəzdində "Elmi Şuranın 29 oktyabr 2016-cı il tarixli qərarı ilə "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyi yaradıldı. Birliyin ətrafında qırx nəfərə yaxın ədəbiyyatşünas alim cəmləşdi. Bu birlik üzvləri həm tədqiqatçı kimi istedadlı alimlər, həm də bədii ədəbiyyatın müxtəlif janrlarında qələmlərini sınayaraq uğur qazanmış şairlər, nasirlər, publisistlər və tərcüməçilərdir.

Tez bir zamanda birlik üzvlərinin ədəbi-bədii materiallarının toplanmasına və onların əsərlərinin tərəfimizdən növ və janrlar üzrə təsnif olunmasına başlandı (nəsr, poeziya və tərcümə).

Bu məqalədə məqsədimiz institutumuzdakı "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin fəaliyyəti və onun üzvlərinin yaradıcılığı haqqında qısaca məlumat verməkdir. 2016-2017-ci illərdə alimlərimizin bədii məhsulları "Ədəbiyyatşünaslıq, plyus" bədii yaradıcılıq (I və II kitab) almanaxları oxucuların ixtiyarına verildi. ("Plyus bədii yaradıcılıq" (Ədəbi almanax) I kitab. Bakı, "Elm və təhsil", 2017; "Plyus bədii yaradıcılıq" (Ədəbi almanax) II kitab. Bakı, "Elm və təhsil", 2018).

2017-ci il iyul ayının 15-də Mərdəkanda AMEA-nın Dendralogiya İnstitutunda akademik İsa Həbibbəylinin rəhbərliyi ilə "Fizika və lirika" konfransında "Plyus bədii yaradıcılıq" (I kitab) və "Qoşa qanad" (I kitab) toplularının təqdimatı yüksək səviyyədə keçirildi.

Almanaxlarda yaşından və elmi fəaliyyət səviyyəsindən asılı olmayaraq mövqeyi olan müəlliflərin şeirləri, nəsr əsərləri və müxtəlif dillərdən tərcümələri toplanmışdır.

Hər bir bədii əsər gərgin yaradıcılıq axtarışlarının, yaradıcılıq prosesinin nəticəsində əmələ gəlir. Bu prosesin mahiyyətini başa düşmək, yaranan sənət əsərlərinə düzgün, obyektiv qiymət vermək, müəllifin başlıca ədəbi məramını, əsərin ideyasını anlamaq, qəhrəmanların hərəkət və davranışlarını dürüst müəyyənləşdirmək, bədii sənətkarlıq cizgilərini, əsərin poetik xüsusiyyətlərini, məzmun və forma gözəlliyini dəyərləndirmək mühüm cəhətlərdəndir ki, topladığımız bədii materialı bu mövqedən ümumi şəkildə nəzərdən keçirməyə cəhd edək... Tanınmış tənqidçi və ədəbiyyatşünas, prof. Yaşar Qarayev vaxtilə yazırdı: "Ədəbi proses anlayışı müəyyən hüdudlarda tamlıq və bütövlüyü, vəhdət və sistemi, baş verən, cərəyan etməkdə olan canlı ədəbi gerçəkliyi nəzərdə tutur. Çılpaq, empirik fakt həqiqəti ilə yox, məhz prosesin həqiqəti ilə nə dərəcədə uğurlu məşğul ola bilməsi onun müasirlik və professionallıq simasını müəyyən edən meyar seçilə bilər".

Bu baxımdan, Ədəbiyyat İnstitutunun əməkdaşları tərəfindən yaranan bədii məhsul öz müasirlik və professionallıq simasına malik ictimai-sosial məzmunlu, müstəqillik dövrü mənəvi həyatımızla sıx bağlı olan bədii faktdır.

2018-ci il iyulun 17-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Nəbatat bağında dördüncü "Fizika və lirika" konfransı çərçivəsində "Qoşa qanad" elmi-ədəbi gecəsi keçirildi. Konfransda elmi məruzələrlə yanaşı, AMEA-nın Azad Həmkarlar Təşkilatı ilə "Ədəbiyyatşünaslıq, plyus" Bədii Yaradıcılıq Birliyinin birgə nəşrə hazırladığı akademiyamızda çalışan alim-şairlərin şeirlərindən ibarət "Qoşa qanad" toplusu (II kitab), eləcə də "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyi üzvlərinin və institutda vaxtilə çalışmış mərhum alimlərin bədii əsərlərindən ibarət "Plyus bədii yaradıcılıq" ədəbi almanaxının (II kitab) təqdimatları keçirildi. Hər iki kitab elmi-ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

"Fizika və lirika" konfransının mütəmadi olaraq keşirilməsi AMEA-da yeni dövrün və mərhələnin aparıcı istiqamətlərindən biridir. Hazırda akademiyada elm sahələri arasında əlaqələrin inkişaf etdirilməsi müasir dövrdə yeni elmi nəticələrə nail olmaq üçün mühüm şərtlərdəndir. Bu istiqamətdə AMEA-nın bütün institutlarında yaradıcı proses davam edir. Belə ki, artıq dörd dəfə keçirilən bu konfrans həm akademiyada elmin inkişafına, həm də bədii ədəbiyyatın, təsviri sənətin, musiqi sənətinin inkişafına əhəmiyyətli təsirini göstərəcəkdir.

Müvafiq mövzuda növbəti konfrans bu ilin noyabr ayında MDB ölkələri səviyyəsində beynəlxalq miqyasda keçiriləcək. "Qoşa qanad" və "Plyus bədii yaradıcılıq" ədəbi almanaxları isə AMEA-da elmlə yanaşı, digər sənət sahələrinin yaranıb inkişaf etdiyinin göstəricisidir.

Akademiya əməkdaşlarının - öz sahəsində alim kimi tanınan şəxslərin bədii yaradıcılıq nümunələrindən ibarət toplularının təqdimatı akademik dillə danışan şəxslərin ruhunun lirik ahəngdə təzahürü idi. Çox maraqlı, orijinal dünyalar, fərqli baxışlar əyan oldu üç saatlıq zaman kəsiyində!

Akademik İsa Həbibbəylinin sözləri ilə desək, "Nizami adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin yaradılması və uğurlu fəaliyyəti, "Plyus bədii yaradıcılıq" ədəbi almanaxlarının ardıcıl nəşri, "Ədəbi proses" müşavirələrində "Ədəbiyyat İnstitutunda ədəbi proses" mövzusunda elmi məruzənin dinlənilib müzakirə olunması ədəbiyyatşünaslıq mühitində elm adamlarının bədii təfəkkürlə əlaqələri genişləndirməyə və dərinləşdirmələrinə hesablanmış əhəmiyyətli addımlardır. Demək olar ki, Nizami adına Ədəbiyyat İnstitutunda digər elmi qurumlarla birlikdə hər il keçirilən "Fizika və lirika" elmi konfransları, eyni zamanda, elmlə bədii fantaziyanın sintezini qüvvətləndirməyə xidmət edir. Azərbaycan Milli Elmlər Akademiyasında bədii yaradıcılıqla məşğul olan, dəqiq və təbiət elmlərini təmsil edən elm adamları ilə birlikdə təşkil olunan "Qoşa qanad" yaradıcılıq gecələri alimlərin, o cümlədən də ədəbiyyatşünasların bədii yaradıcılıq sahəsindəki hesabatı olmaqdan başqa, həm də elmlə ədəbiyyatın ittifaqını formalaşdıran əhəmiyyətli elmi-ədəbi tədbirlərdir. Akademik mühitdə elmlə ədəbiyyatın müttəfiqliyinə doğru atılan addımlar yaradıcı adamlar üçün mühüm elm və sənət məşqləridir. Heç şübhə yoxdur ki, elmlə ədəbiyyatın qarşılıqlı zənginləşməsinə xidmət edən bu proses nə vaxtsa elmdə və ədəbiyyatda özünün qeyri-adi partlayışını doğuracaqdır. Böyük ədəbiyyat da, əsl elm də belə yaranır.

"Plyus bədii yaradıcılıq" və "Qoşa qanad" toplularının təqdimatları elm və ədəbiyyatın dialektik əlaqələri zəminində qoşa qanadlardan hər ikisi istiqamətində yeni tipli görkəmli elm və ədəbiyyat xadimlərini yetirəcəkdir. "Fizika və lirika" konfransları, "Qoşa qanad" və "Plyus bədii yaradıcılıq" müzakirələri əhəmiyyətli elm və ədəbiyyat dərsləri olub, elmə də, sənətə də özünün bəhrələrini verəcəkdir".

Onu da qeyd edək ki, akademik İsa Həbibbəylinin təqdimatı və geniş "Ön söz"ü ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik Məmməd Cəfər Cəfərovun yeni aşkar edilərək nəşr edilmiş "Get dolangilən, xainsən hələ" pyesinin kitab halında nəşr edilməsi və müzakirə olunması ötən dövrdə "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyinin elmi mühitdə bədii yaradıcılığı təşviq etmək istiqamətində həyata keçirdiyi əhəmiyyətli tədbir kimi yadda qalmışdır.

Ədəbiyyatşünas və tənqidçi şairlərimizin yaradıcılığına ümumi bir nəzər saldıqda görürük ki, onlar ədəbiyyatın daha çox ötən il olduğu kimi, əbədi-əzəli mövzularına müraciət edirlər. Ümumi xətt-leytmotiv Vətəndir, onun ağrı-acılarıdır, itirilmiş torpaqlarımızın həsrətidir. Ana mövzusunda da şeirlər ənənəvi olaraq çoxluq təşkil edir. Şübhəsiz, bütün əsərlər, şeirlər məhəbbətdən doğur: Allaha, Vətənə, Anaya, Sevgiliyə olan eşqdən...

Ədəbiyyat İnstitutundakı ədəbi proses ölkə miqyasında formalaşan, inkişaf edən milli ədəbi prosesin tərkib hissəsidir, çünki çağdaş Azərbaycan ədəbiyyatı dərin tarixi köklərə, ənənələrə, milli zəminə malikdir və coğrafiyası çox genişdir.

Tənqidçi və ədəbiyyatşünasların bədii yaradıcılığı onların elmi-tədqiqatçılıq fəaliyyətini və Ədəbiyyat İnstitutunun bütöv mənzərəsini tamamlayır.

"Ədəbiyyarşünaslıq, plyus" Yaradıcılıq Birliyi iki il ərzində üzvlərinin sayəsində müəyyən işlər görüb. Gələcəkdə də inanırıq ki, elm sahəsində gərgin çalışan alimlərimiz ilham pərisinin qanadlarında yaradıcılıqları ilə də bədii-poetik nümunələr yaradacaqlar. Biz də mütəmadi olaraq bu əsərlərdən ibarət topluları ədəbi ictimaiyyətə, geniş oxucu auditoriyasına təqdim edəcəyik.